# “Tanrım, mən ölü, sən diri”



Paşa Talıblı

## Tanrının qələmi...

...divar-divar mismarları deyirəm,
bürcü-bürcü divarları sökəni!
Daha cəllad kötükləri saxlamır,
icazə ver qələminə söykənim!

...əvvəl heç nə- boz-bulanıq!
Nə bilim, bəlkə son duru...

Bu cam dolacaq, görərsən,
gül də solacaq- görərsən!
Çox şey olacaq, görərsən...
Tanrım, mən ölü, sən diri!

...gecə də gecədən keçmir!
Bu nəm də keçədən keçmir!
...sətirdən, hecadan keçmir;
nə sözdü-qələm sındırır.

***

Gecənin əli yox, ayağı yoxdu...
Canıma yapışmış yosundu gecə.
...Sevmək var gecənin birində hələ,
hələ dərd çəkməyə uzundu gecə.

...Uzun gecələrdə mən kiməm, axı -
nə elə çaparam əməlli-başlı
nə elə minməyə atım da yoxdu.
...Hardasa üstümdə Tanrı kölgəsi,
hardasa öz kölgəm altımda yoxdu.

...Gecələr özümə qayıtmaq çətin,
gecələr özümdən qaçıram... olmur.
Gündüz dərdləridi gecə dərdləri...

Deyirdilər, qələmində nəsə var...
Nə belə yaz, nə yaz elə, İlahi!
İcazə ver qələminə söykənim,
yıxılmaqdan xilas elə, İlahi!

Mən alnımda dirilincə nə yazdın?
Mən ölüncə nə yazmışdın alnıma?
Bugünkündən daha gözəl, İlahi,
min il öncə nə yazmışdın alnıma?

Min il öncə nə yazmışdın, İlahi?
Sən susmağın mən sükutun yasıyam!..
İcazə ver qələminə söykənim,
yıxılıram alnımdakı yazıya!

## Molbertdə azmış kor rəssam...

Hardasa azyaşlı ümid...
...yoxluğun ahıl nəfəsi!
Molbertdə azmış kor rəssam...
Nə özü gəlir, nə səsi.

...kimi küsüb Allahından,
kimi özünə gün ağlar.
...yenə yerini dəyişir-
qabıq dəyişir günahlar!

Hamı bir-bir yox, üç-üçdü,
dörd-dörddü...kim axı, birdi?
...və kimdi bir olan Allah?
...və kimin Allahı birdi?

Guya hər şey bir təsadüf...
...tabloda təkayaq fəsil!
Molbertdə azmış kor rəssam
qüssədi...ya tövbə ya sirr!

Dilimə gətirə bildim;
Gilin yerinə gül yazsam!
...və kimdi tək olan Allah?
Molbertdə azmış kor rəssam?

## Adını sən de...

Min şükür sənə, İlahi,
min şükür, hələ son durur!
Gündüzlər çəkməyə macalım olmur.

...Gecələr yatıram üzü dərdimə,
özümü dərdimə bükürəm, qardaş!
...Gündüzlər çəkməyə həvəsim olmur,
mən dərdi gecələr çəkirəm, qardaş, -
...mən harda gizlənim bu gecələrdən?

...Bu dərdin əlindən hara qaçım mən,
bəlkə qaçım burdan orda gizlənim?
...Mən harda gizlənim bu gecələrdən?
Mən özüm-özümdən harda gizlənim?

...Şeir yazmaq günahmı? Günahlarımı
sağımda-solumda mələklər yazır.
...Başımın üstündə dar ağacıdı,
altında həmişə ölümüm hazır -
...mən harda gizlənim bu gecələrdən?!

***

*(Vaqif Səmədoğlunun
“İlahi, mən burdayam”
kitabına)*

...yox sonuncu dayanacaq
Vaqifin son kitabında.
...son külək hələ qalxmayıb
Vaqifin son kitabında.

...şerlər düşmə yuxudu,
göylər yağışa toxudu.
...bu gecə rahat oxudum
Vaqifin son kitabını.

...bir qanadsız daş görmədim,
bir hücrəni boş görmədim.
Şairin son kitabında
Vaqifi sərxoş görmədim!

Hələ rəngsizdi ölkəsi...
...şahə qalxar boz ürgəsi.
— durur zeytunun kölgəsi
Vaqifin son kitabında!

...Məhəmməd, İsa, Buddayam!
...torpaqda, suda oddayam.
Mən də İlahi, burdayam
—Vaqifin son kitabında!

Türküstan.- 2022.- 15-28 mart.- S.15.